Mövzu:10 **Paleogey qurusu- Hindistan- Malay vilayəti**

**Ümumi xarakteristikası** – Hindistan- Malay vilayəti Hindistanı, Seylon adasını, Hind- Çini, Bali və Selebesdən başlamış şərqə doğru Filippin adaları da daxil olmaqla Malay arxipelaqını əhatə edir.Hindistan faunası qərb tərəfə getdikcə aralıq dənizi yarəmvilayətinə keçir ki, bunların arasında xətlə sərhəd çəkmək çətindir və Tarra səhrası bu iki fauna arasında keçid qurşaq təşkil edir. Hindistan-Malay vilayətinin şimal sərhəddi qərb tərəfdə Himalay dağlarının cənub ətəkləri ilə uzanır, şərq tərəfdə isə aydın surətlə seçilmir və Çinin bütün şimal hissəsi geniş keçid qurşağı təşkil edir.

Hindistan-Malay vilayətinə çoxlu miqdarda adalar daxil olmasına baxmayaraq bu vilayətin faunası qitə faunası xarakterinə malikdir: bu fauna çox müxtəlif və zəngindir və bu faunanın biosenozları olduqca doludur. Fauna kəsirliliyi( məs. Efiopiyada ayıların vı maralların, Cənubi Amerikada isə boşbuynuzluların və həşaratların olmaması kimi) olmaması bu vilayət üçün olduqca xarakterdir.Ancaq bununla yanaşı olaraq yüksək təsnifat dərəcəli endemik qrupların sayə çox deyildir.

Hindistan-Malay vilayəti faunasının ən mühüm əlamətləri aşağıdakılardır: Burada məməlilərin ancaq bir endemik dəstəsi- dəriqanadlılar, həm də bir endemik yarımdəstə uzundabanlar yarımdəstəsi vardır, tunayalar və hibbonlar fəsilələri endemikdir, marallar, çincablar və uçan sincabların, quşlardan isə qırqovulların növü çoxdur.2.ümumiyyətlə geniş yayılmış olan qrupların bəzi növləri burada yoxdur, 3. Bu faunanın Efiop faunasına çox oxşarlığı vardır ki, bu da yüksək təsnifat dərəcəli bir sıra ümumi qrupların olmasında nəzərə çarpır( fillər, kərgədanlar, ensizburun meymunlar, o cümlədən insanabənzər meymunlar, folidotlar, maralcıqlar, yarımmeymunlar, kərkədan quşlarə və s.) 4. Hindistan-Malay və Avstraliya vilayətlərinin aralıq yerlərində bu iki vilayət faunalarının bir-birinə keçməsi müşahidə olunursa da ancaq Hindistan-Malay faunası Avstraliya faunasından kəskin surətdə fərqlənir 5. Burada yaşayan tapirlər və yenotlar Neotropika vilayətində də yaşayırlar. Hindistan-Malay vilayəti tamamilə tropik və subtropik qurşaqlarda yerləşirlərsə də, ancaq bu vilayətin kəsmə relyefləri olduqca müxtəlif landşaftların əmələ gəlməsinə səbəb olmuşdur.

**Əsas qrupların icmalı** – Kisəlilərin az miqdarda növləri( küs-küslər) ancaq cənub-şərqi ucqarlarda (Selebes) yaşayır. Həşaratyeyənlərdən burada yarımağac və yarımquru yaşayışı keçirən tunayalar xüsusilə maraqlıdır. Bu heyvanlar yəqin ki, həşaratyeyənlərin əsas əcdadlarına yaxındırlar və onları müəyyən dərəcədə yarımmeymunlar ilə əlaqədar edirlər. 7 cinsi və 65 növü və yarımnövü olan tupaylar Hindistanda, Hind- Çində və Malay arxipelaqının qərb hissəsində geniş

yayılmışlar. Folidotlar bu vilayətin demək olar ki, hər yerində yayılmışlar.Gəmiricilərdən ancaq sincablar, uçan sincablar və siçanlar çoxnövlüdür. Yırtıcı heyvanlardan pişiklər fəsiləsinin çox növü vardır və onların ən xarakter növü pələng hesab olunur. Viberraların növləri çoxdur.Amerika yenotları fəsiləsinin yeganə nümayəndəsi olan və şərq yarımkürəsində yaşayan panda Himalay dağları və Cənub-qərbi Çin meşələrində yayılmışdır. Hindistan fili Qərbi Hindistan, Assam, Birma, Siam, Koxinxin meşələrində, Malakka yarımadasında və həmçinin üç böyük adada: Seylon, Sumatra və Borneo adalarında yaşayır. Antilplar əsas etibarilə Qərbi Hindistanda yaşayır.Burada yaşayan təkdırnaqlılar Hindistan tapirindən və Efiop cinslərindən yaxşı fərqlənən başqa cinsə aid olan kərkədanlardan ibarətdir. Yarımmeymunların ancaq 3 növü: yoğun və nazik lorilər və uzundaban vardır.Efiop vilayəti üçün pavianlar və əsl əntərlər xarakter olduğu kimi, Hindistan- Malay vilayəti üçün də makakular yöğunbədən meymunlar xarakterdirlər.

Hindistan-Malay vilayəti quşları olduqca çox müxtəlifdir.Vəhşi toyuqlar, əsl tovuz quşları və bir sıra qırqovullar endemikdirlər. Kərtənkələlərin və ilanların növləri çoxdur. Timsahlardan qaviallar endemikdirlər. Balıqlardan çəkibalığıkimilər və naxaların növləri olduqca çoxdur.

**Yarımvilayətlər:** Hindistan- Malay vilayətinin ayrı-ayrı yarımvilayətlərə bölünməsi haqqında tədqiqatçılar müxtəlif fikirdədirlər. Bu vilayət landşaftlarının müxtəlif olmasını, burada adaların çoxluğunu və ümumiyyətlə vilayətin aralıq yer tutması sayəsində buradakı faunanın çeşidliyini nəzərə alsaq müxtəlifliyin səbəbi aydın olar.

1. **Hindistan yarımvilayəti** – şərqə doğru Qanq və Bramaputr çaylarının ümumi deltasına qədər bütün qərbi Hindistanı və Seylin adasını əhatə edir ki, bu ada nisbətən yaxın zamanlarda qitədən ayrılmışdır. Hindistan yarımvilayəti əsasən savannalar və rütubətsevən meşələr ölkəsidir ki, belə meşələr başlıca olaraq Himalay dağlarının diblərində və cənub ətəklərində, Hindistan yarımadasının cənub hissələrində və Seylon adasında daha çox yayılmışlar. Tipik Hindistan-Malay formaları ilə məs. tunaylar, təkbuynuz kərkədan, Asiya fili, qaur ilə yanaşı olaraq burada Paleoarktika və Efiopiya heyvanlarından çoxlu miqdarda növlər yaşayır ki, onların çoxu açıq sahələr ilə əlaqədardırlar. Digər tərəfdən, Hindistan-Çin formalarının bir çoxu bu yarımvilayətdə yaşamır.
2. **Birma-Çin yarımvilayətinə-** Asiya qitəsinin ən cənub- şərq hissəsi( Malakkadan başqa) və iki böyük ada- Formoz və Qaynan adaları daxildir. Bu yarımvilayət daha zəngin faunaya malikdir və Hindistan- Malay

faunasının xarakter nişanılıri burada daha aydın görünür. Ağac bitkilərinin daha yaxşı inkişaf etməsi ilə əlaqədar olaraq burada yaşayan heyvanlar əsas etibarilə meşə və əsasən ağac heyvanlarıdır: meymunların bir çoxu( nazikbədən meymunlar, makakilər, hibbonlar), tunayalar, sincablar, ağac viverraları belə heyvanlardır. Hindistan yarımvilayətindən fərqli olaraq burada dəriqanad yaşayır.

3. **Zond yarımvilayəti** – Malakka yarımadasını və Böyük Zond adalarını- Sumatra, Yava və Borneo adalarını əhatə edir. Bu yarımvilayətin əsas landşaftı rütubətsevən tropik meşədən ibarətdir.Bu yarımvilayətin adalardan ibarət olmasına baxmayaraq, buradakı fauna qitə xarakteri daşıyır ki, bu da həmin adaların nisbətən yaxın zamanlarda qitədən ayrılmış olduğunu göstərir. Bu yarımvilayət faunası üçün ümumiyyətlə hibbonların çoxlu sayda olması xarakterdir., dəriqanad və uzundaban, tunayların bir çoxu və sincablar geniş yayılmışlar.Malakka və Sumatra adalarında Hindistan tapiri yaşayır ki, bu da şərq yarımkürəsində yaşayan yeganə tipdir. Oranq iki adada- Borneo və Sumatra adalarında yaşayır. Yava adasında təkbuynuz kərkədan yaşayır ki, bu da Hindistan kərkədanına yaxındır. Süzmə uçişuna malik olan bir çox heyvanların olması xarakterdir, onlardan dəriqanadı, uçan sincabların çoxunu, kərtənkələlərdən uçan drakonu, suda- quruda yaşayanlardan isə” uçan” qurbağanı göstərmək olar.
4. **Filippin yarımvilayəti** - Buraya ancaq Filippin adaları daxildir və yarımvilayət aydın görünən ada xarakterinə malikdir. Filippin yarımvilayəti bir tərəfdən faunanın ümumiyyətlə az növlərə malik olması, digər tərəfdən isə ayrı-ayrı qrupların daha zəngin olması ilə ada xarakteri daşıyır. Məs. ən böyük ada olan Lyuson adası dağlarında siçankimilərin 7 endemik cinsi yaşayır. Burada dəriqanad və uzundabanın endemik növləri, quşlardan isə meymunyeyən adlı xüsusi cins xarakterdirlər; bu quş çox iri dimdikli yırtıcı quşdur.
5. **Selebes yarımvilayəti-** faunası içərisinə oqədər çox Avstraliya formaları qarışmışdır ki, bəzi tədqiqatçılar bu adanı Avstraliya vilayətinə aid edirlər. Xüsusilə burada küs-küslər yaşayır ki, bu yarımvilayət ümumiyyətlə kisəlilərin yayılmış olduqları yerin ən şimal-qərb sərhəddidir. Selebes adasında sincablar, meymunlar, yereşənlər, viverralar, folidotlar, uzundaban, ağacdələnlər və s. kimi Avstraliya faunasına yabançı olan heyvanlar yaşayır. Endemik növlərin sayı olduqca çoxdur və bir sıra xarakter endemik cinslər vardır ki, onlardan kəkilli makaini, primitiv anoa öküzünü və çox xüsusiyyətli babirus donuzunu göstərmək olar. Anoa öküzü çiyin sıviyyəsində 1 m hündürlükdə olur. Babirus donuzunun üst

köpək dişləri olduqca uzundur, bu dişlər burun hissəsində dərini deşib keçərək geriyə- alına doğru uzanmış olurlar.Ehtimal,  Selebes adasında qədim Hindistan-Malay faunasının elementləri qalmışdır ki, bu fauna qitədən ,Böyük Zond və Filippin adalarından hazırkı Hindistan-Malay faunası tərəfindən sıxışdırılmışdır.